# Avropa Məhkəməsi SOCAR-ın Azərbaycanlı jurnalistə qarşı zorakılığını araşdırır

Dərc olunmuşdur: 18 sentyabr 2017

*“Mən həbs olunmuş və hücuma məruz qalmışam. Ailəm və evim basqına məruz qalmışdır. Azərbaycanda ədalət tapmaq mümkün deyil. Hazırda Avropa Məhkəməsi mənə hücum edənləri məsuliyyətə cəlb etmək üçün yeganə imkanımızdır”*

*Azərbaycanlı journalist 2017-ci ilin sentyabr ayında bildirib*

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Azərbaycan Hökumətindən 2012-ci ilin aprel ayında SOCAR[1]-ın mühafizə əməkdaşları tərəfindən jurnalist İdrak Abbasova qarşı edilən fiziki hücum və təhqirə görə izahat verməyi xahiş edib. İdrak Abbasov qeyd edilən tarixdə Bakının ucqar ərazisində SOCAR tərəfindən evlərin sökülməsinə qarşı sakinlərin etirazını işıqlandırırdı. O, hazırda Media Hüquqları İnstitutu[2] [2] və Middlesex Universitetində yerləşən Avropa İnsan Hüquqları Təşviqatı Mərkəzi tərəfindən təmsil olunur.

İdrak Abbasov “Zerkalo” qəzeti üçün çalışırdı. 2012-ci ilin aprel ayında o, SOCAR tərəfindən əldə edilən ərazidə yerləşən evlərdən çıxarılan və evləri sökülən yerli sakinlərin etiraz aksiyasını işıqlandırırdı. Həmin vaxt o, jurnalist gödəkçəsi də geyinmişdi. Abbasov çəkilişi dayandırmaqdan imtina etdikdə, SOCAR-ın 20-ə yaxın təhlükəsizlik xidməti əməkdaşı onu yerə yıxaraq rezin dəyənəklə döymüş, bütün bədəninə, o cümlədən gözlərinə zərbələr endirmiş və onu söymüşdülər. Nəticədə o, huşunu itirmişdi. Ərazidə olan polis əməkdaşları SOCAR əməkdaşlarının qarşısını almadı və digər şahidlərə də ona kömək etməyə imkan vermədilər. Nəticədə, Abbasovda travmatik beyin zədəsi, baş beyin silkələnməsi, cırılmış göz qapağı, qırılmış iki qabırğa və digər zədələr meydana çıxdı.

Abbasov Avropa Məhkəməsi qarşısında iddia edir ki, o, pis rəftara məruz qalmış və jurnalist kimi fəaliyyətinə görə hücuma məruz qalmış və bunların heç biri araşdırılmamışdır (Avropa İnsan Hüquqları Konvensiyasının 3 və 10-cu maddələri). O, həm də səmərəli hüquqi müdafiə vasitələrinə çıxışının olmadığına dair şikayət edir (Avropa İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsi).

11 iyul 2017-ci il tarixdə Avropa Məhkəməsi Azərbaycan Hökumətini 2017-ci ilin noyabr ayına qədər öz qeydlərini təqdim etməyə dəvət edib. Bunun ardınca, biz öz cavabımızı göndərəcəyik. Məhkəmə bu işi daha 7 işlə birlikdə qruplaşdırmışdır. Belə ki, həmin işlərin hamısı jurnalistlərə qarşı zorakılıqla əlaqəlidir. EHRAC Azərbaycanda tənqidi səslərə qarşı sistematik xarakter almış hücumla bağlı olan bir sıra işlərlə məşğul olur. Belə ki, son illərdə Azərbaycanda jurnalistlər, mətbuat orqanları, vəkillər və hüquq müdafiəçiləri və vətəndaş cəmiyyəti təşkilatları kəskin məhdudiyyətlərlə üzləşmiş və nəticədə öz fəaliyyətlərini dayandırmağa və ya xaricə köçməyə məcbur olmuşdur.

---

[1] Azərbaycan Respublikası Dövlət Neft Şirkəti

[2] Bu iş ilkin olaraq Media Hüquqları İnstitutu (Bakı) tərəfindən qaldırılmış, lakin sonradan 2014-cü ildə hüquq müdafiəçilərinə qarşı Dövlət basqısı nəticəsində İnstitutun fəaliyyəti dayandırılmışdır.